# “Bakıdakı Zəfər paradı düşmənə zərbə vurdu, dosta güvən verdi”



**“Hərbi paradlar dövlətin gücünü, silahlı qüvvələrin potensialını, ordunun dövlətlə, xalqla birliyini, onun cəsarət və fədakarlığı ilə yanaşı, müasir, modern silah-sursat sistemlərinin nümayiş etdirildiyi, göstərildiyi böyük təntənəli hərbi güc nümayişidir”. Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz mediaya açıqlamsının davamında bildirib:**

– Keçən il dekabrın 10-da Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradından əvvəl bir möhtəşəm parad da 2018-ci ildə Bakının azad edilməsinin 100-cü ildönümü ilə əlaqədar təşkil edilmişdi. Həmin paradda da Prezident Rəcəb Tayyib Ərdoğan və türk əsgərləri iştirak etmişdilər. O paradda Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan çıxışlarında artıq Azərbaycanın sülhə verdiyi şansın sona çatmaq üzrə olduğunu, səbrin tükənmək üzrə olduğunu, BMT TŞ-nin qətnamələrinin və beynəlxalq hüquqla nəzərdə tutulmuş addımların atılmasının vacibliyini qeyd etmişdilər. Lakin təəssüf ki, 2018-ci ildə sülhə, sabitliyə qovuşmaq üçün verilən mesajlar Ermənistanın hər zaman olduğu kimi biganəliyi, Qərbin ikili standartları nəticəsində mümkün olmadı.

Noyabrın 10-da Ermənistanın kapitulyasiya aktına imza atmasından sonra 10 dekabrda Azərbaycanın Zəfər paradını qeyd etməsi Azərbaycanın ordu quruculuğu, Azərbaycan dövlət müstəqilliyi baxımından tarixi bir gün oldu. Bu, Ermənistan dövlətinin və silahlı qüvvələrinin məğlubiyyətini təsdiq etdi. Dağıdılmış düşmən ordusundan ələ keçirilən qənimətlərin – hərbi maşınların, silah və sursatların Zəfər paradında nümayiş etdirilməsi Ermənistanın acizliyinin bir utanc nümunəsi kimi dünyaya göstərilməsi oldu.

Eyni zamanda, bu parada R.T.Ərdoğanın qatılması, onunla yanaşı Türkiyə dövlətinin bütün dövlət nümayəndələrinin iştirakı, o paradda Türkiyə Silahlı Qüvvələrinin təmsil edən, Türkiyə Silahlı Qüvvələrinin şərəf rəmzi olan şanlı bayrağın qatılması, bundan əlavə Türkiyənin siyasi, hərbi, hüququ və mənəvi olaraq Azərbaycanla bir ürək, bir nəfəs olduğunun təsdiqi oldu.

Parada qatılan Türkiyə Silahlı Qüvvələrinin döyüş bayrağının da xüsusi bir önəmi var idi. O bayraq şanlı Bolu Komando Briqadasının bayrağı idi. Bu bayraq Qurtuluş savaşında Kiprin azad edilməsində şanla, şərəflə işini görmüş və Kiprə sülh və sabitliyi gətirmiş bir bayraqdır. Dolayısı ilə 44 günlük Vətən müharibəsinin sonunda da torpaqlarını azad edən Azərbaycanda həyata keçirilən Zəfər paradına da Bolu Komando Briqadasının bayrağının gətirilməsi ayrı bir məna və əhəmiyyət daşıyırdı.

“Bakıda Zəfər paradı ilə başlayan, Şuşa Bəyannaməsi ilə davam edən bu münasibətlər Türkiyə–Azərbaycan tarixinin zirvəsidir”– deyən general Yücel Karauz daha sonra bildirib:

– Zəfər paradı Şuşa Bəyannaməsi deməkdir, Zəfər paradı Füzuli Hava Limanı deməkdir. Zəfər paradı 83 milyon Anadolu türkü ilə 10 milyon Azərbaycan xalqının bütünləşməsi, bir millətdən bir dövlətə keçid nümunəsi, Azərbaycan Ordusunun Türkiyə Ordu modelinə keçidi deməkdir.

İki dövlətin bu şəkildə göstərdiyi birlik Türkd Dövlətləri Təşkilatındakı dövlətlərə də təsirini göstərdi. Bu gün İstanbul Zirvə toplantısı bir yerə toplanan birlik və bərabərlik nümunəsi halına gəlib. Zəfər paradı İstanbulda Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına, dövlətinə və silahlı qüvvələrinə qarşı bir təşəkkür hissi olaraq həm özü üçün, ümumilikdə isə türk millətinə görə apardığı savaşdan, mübarizədən ötrü mükafatlandırılması dövlət başçısının bunu Azərbaycan xalqı adından qəbul etməsi deməkdir.

Zəfər paradına Türkiyə və Azərbaycanın birgə qatılması, qardaşlığı nümayiş etdirməsi bölgə ölkələrinə, qlobal aktrolara sülh və sabitliyin, etibarın qarantının Türkiyə və Azərbaycan olduğunu, bu bölgədə sözünün keçməyini istəyənlərin Türkiyə və Azərbaycanın səsinə qulaq verməsi deməkdir. Bu dostluq və qardaşlıq digər türk dövlətlərinə, digər sülh, sabitliq, haqq, hüquq mübarizəsi aparan dövlətlərə də ilham qaynağı oldu, düşmənə qorxu, dosta güvən verdi. Bu etibar, bu güvən sayəsində ayaqdayıq. Gücümüz birlikdədir, birlik olduğu təqdirdə həll edə bilməyəcəyimiz məsələ yoxdur.

Türk Dövlətləri Təşkilatındakı ölkələr də sıramıza qoşuldu. Bununla yanaşı, Pakistan, Macarıstan, Ukrayna kimi Türkiyə və Azərbaycana, ümumilikdə türk dünyasının maraqlarına dəstək verən ölkələrin qatılması da bölgə və dünya üçün sülhün, sabitliyin təmin edilməsində mühim rol oynayacaq.

***Hazırladı: R.TAHİR,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 15 dekabr.- S.10.